**https://doi.org/10.58225/tim.2025-1-53-58**

**F.Ə.Mirzəyev**
***t.e.n., dosent, Bakı Dövlət Universiteti***
***ORCİD 0009-0008-4458-9781***
***farhad_1958@mail.ru***
**N.M.Baxışov**
***i.e.n., Bakı Dövlət Universiteti***
***ORCİD 0000-0001-8794-9187***
***namigbm@yahoo.com***
**Z.Y.Cavanşirova**
**doktorant, *Bakı Dövlət Universiteti***
***ORCİD 0009-0000-3751-2809***
***shabiyeva.zuleyxa@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 13.02.2025*
*The article was received by editorial board on 13.02.2025*
*Статья принята к печати 13.02.2025*

# KƏND ƏHALİSİ MİQRASİYASININ PROQNOZ VARİANTLARININ TƏHLİLİ HAQQINDA

**Xülasə**

*İşdə kənd əhalisinin miqrsiyasıyasının proqnoz variantları təhlil edilmiş, son illər bütün dünyanı bürüyən kənddən şəhərə axın məsələsinə müxtəlif aspektlərdən baxılmış, bu vəziyyətdən çıxış yolları araşdırılmış, vəziyyətin düzəlməsi üçün təkliflər hazırlanmışdır. Son illər dünyanın əksər ölkələrində şəhər inkişafının iqtisadi inkişafda çox mühüm rol oynaması səbəbindən kənd yerlərindən şəhərlərə köç axınları dramatik xarakter almaqdadır. Bu köçün intensivliyi şəhər yerlərində yeni iş yerlərinin yaradılması sürətindən daha çox olaraq, həm sənayenin, həm də şəhər yerinin sosial xidmətlərinin inkişafı gücünü xeyli üstələmişdir. Belə daxili miqrasiya kənd və şəhər arasındakı strukturun disbalansını birbaşa olaraq, iki istiqamətdə pisləşdirir. Birinci problem təklif baxımından ortaya çıxır. Çünki, daxili miqrasiya şəhər əhalisinin artımı ilə müqayisədə şəhər yerlərində iş axtaranların artımını qeyri-mütənasib surətdə gözlənildiyindən də çox artırır (Adətən köç edənlər arasında ali təhsilli gənclər yüksək faizə sahib olurlar). Ölkədaxili miqrasiya şəhər əməyinin təklifinin artmasına və eyni zamanda kənd yerlərində qiymətli insan kapitalının azalmasına səbəb olur. İkinci problem məsələnin tələb tərəfidir. Şəhərlərdə iş yerlərinin yaradılması kəndlərdəkindən struktur etibarı ilə daha müqayisədə kifayət qədər baha başa gəlir. Bunun səbəbi sənaye sahəsində iş yerlərinin əksər hissəsinin çox böyük həcmdə əlavə ehtiyatlar tələb etməsində, şəhər yerlərində maaşların artırılması və işçilər üçün məcburi olaraq əlavə tutumlu istehsal texnologiyalarının olmaması məsələsi ilə birləşərək, müxtəlif sahələrdə məhsul artımının əmək məhsuldarlığının artması hesabına başa gəlməsindədir.*

***Açar sözlər:*** *demoqrafiya, miqrasiya,kənddən şəhərə axın, işsizlik, milli məclis, sosial media.*

## GİRİŞ

Demoqrafik siyasətin və əhali sakinliyi sisteminin kompleks şəkildə işlənib hazırlanması məqsədi ilə sosial-iqtisadi inkişafa, o cümlədən yoxsullugun səviyyəsinə təsir göstərən əsas amillərdən biri demoqrafik vəziyyət və əhali sakinliyinin inkişafıdır.Məhz bu baxımdan 11 noyabr 2004-cü ildə və davamlı olaraq növbəti dövrlərdə də Azərbaycan Respublikası Prezidenti tərəfindən “Azərbaycan Respublikasında demoqrafik və əhali sakinliyinin inkisafı sahəsində Dövlət Proqramı” qəbul edilmişdir ki, bu da tədqiq olunan problemin aktuallıgına əyani sübutdur.

Son illər dünyanın əksər ölkələrində şəhər inkişafının iqtisadi inkişafda çox mühüm rol oynaması səbəbindən kənd yerlərindən şəhərlərə köç axınları dramatik xarakter almaqdadır. Bu köçün intensivliyi şəhər yerlərində yeni iş yerlərinin yaradılması sürətindən daha çox olaraq, həm sənayenin, həm də şəhər yerinin sosial xidmətlərinin inkişafı gücünü xeyli üstələmişdir. Belə daxili miqrasiya kənd və şəhər arasındakı strukturun disbalansını birbaşa olaraq, iki istiqamətdə pisləşdirir. Birinci problem təklif baxımından ortaya çıxır. Çünki, daxili miqrasiya şəhər əhalisinin artımı ilə müqayisədə şəhər yerlərində iş axtaranların artımını qeyri-mütənasib surətdə gözlənildiyindən də çox artırır (Adətən köç edənlər arasında ali təhsilli gənclər yüksək faizə sahib olurlar). Ölkədaxili miqrasiya şəhər əməyinin təklifinin artmasına və eyni zamanda kənd yerlərində qiymətli insan kapitalının azalmasına səbəb olur. İkinci problem məsələnin tələb tərəfidir. Şəhərlərdə iş yerlərinin yaradılması kəndlərdəkindən struktur etibarı ilə daha müqayisədə kifayət qədər baha başa gəlir. Bunun səbəbi sənaye sahəsində iş yerlərinin əksər hissəsinin çox böyük həcmdə əlavə ehtiyatlar tələb etməsində, şəhər yerlərində maaşların artırılması və işçilər üçün məcburi olaraq əlavə tutumlu istehsal texnologiyalarının olmaması məsələsi ilə birləşərək, müxtəlif sahələrdə məhsul artımının əmək məhsuldarlığının artması hesabına başa gəlməsindədir.

Bunun nəticəsidir ki, təklifin sürətlə artması və tələbin ona müqayisədə az artımı qısamüddətli ehtiyatlar disbalansını işçi qüvvəsi probleminə çevirməyə meyllidir.

Ancaq faktlar göstərir ki, miqrasiyanın inkişafa təsiri şəhərlərdə işsizliyin və natamam məşğulluğun pisləşməsindən daha genişdir. Faktiki olaraq, əksər inkişaf etməkdə olan ölkələrdə miqrasiyanın əhəmiyyəti heç də prosesin özündə deyil, onun əhəmiyyəti bütövlükdə iqtisadi artıma, onun xarakterinə, paylayıcı təzahürlərinə təsirindədir.

Bu səbəblərdən biz məşğulluq imkanlarını üstələyən köç axınlarının iqtisadi geriliyin həm əlamətidir, həm də səbəbi olması “hökmünü”qəbul etməyə məcburuq.. Beləliklə, kənddən şəhərə köçün səbəblərini, nəticələrini daha yaxşı başa düşmək, inkişaf prosesinin mahiyyətini anlamaq və bu prosesə sosial baxımdan arzuolunan üsullarla təsir göstərmək üçün siyasət nöqteyi-nəzərdən qiymət vermək lazımdır. Bütün dünyada bu proses getdiyindən kənd və şəhər yerlərində real gəlirlərə təsir edən iqtisadi və sosial siyasətin miqrasiyaya dolayı da olsa, dəstək verdiyini qəbul etmək lazımdır. Bütün bunlar gəlir bölgüsünün, hətta əhalinin artımının dəyişməsinə gətirib çıxaracaqdır.

**NƏZƏRİ YANAŞMALAR**

Miqrasiya nümunələri mürəkkəbdir. Miqrasiyanın ən mühüm növü kənddən şəhərə köçdür, çünki şəhər yerlərində nəsilvermə əmsal aşağı olsa da, şəhər əhalisinin ümumi əhali içərisində payı artır və bu həqiqətən də kənddən şəhərə köç hesabına formalaşır. Bu miqrasiya növü **aqlomerasiya** iqtisadiyyati və digər amillər sayəsində şəhərlərin iqtisadi fəaliyyəti nəticəsində təmin olunan potensial inkişaf qaydaları baxımından əhəmiyyətlidir.

**TƏHLİL**

Bəzən şəhərdən kənddə köçdə baş verir, bu hal şəhərlərdə aqrar məhsulların qiymətlərinin artması kimi halların üst-üstə düşdüyü zamanlar baş verir. Deməli, yaranan ümumi mənzərə əhalinin inkişaf etməkdə olan ölkələr daxilində davamlı hərəkətidir. Bu hərəkətlənmələr ənənəvi cəmiyyətlərə xas olan durğun mənzərə ilə ziddiyyət təşkil edir. Bu mənzərəni aşağıdakı cədvəldə görə bilərik.

**Cədvəl 1**

**Seçilmiş ölkələrdə ölkə daxili miqrasiyanın tərkibi (Dünya bankının məlumatlarına əsasən)**

| Ölkələr | Kənddən şəhərə | Kənddən kəndə | Şəhərdən şəhərə | Şəhərdən kəndə |
|---|---|---|---|---|
| Bostvana | 60 | 25 | 10 | 5 |
| Sudan | 35 | 15 | 40 | 10 |
| Cənubi Koreya | 30 | 5 | 55 | 10 |
| Efiopiya | 25 | 25 | 35 | 15 |
| Honduras | 23 | 23 | 46 | 8 |
| Hindistan | 18 | 64 | 10 | 8 |

| | | | | |
|---|---|---|---|---|
| Tayland | 16 | 44 | 10 | 30 |
| Kot-dLvuar | 15 | 25 | 40 | 20 |
| Peru | 13 | 23 | 50 | 14 |
| Gana | 5 | 15 | 50 | 30 |

Bütün miqrasiya növlərini yaradan səbəblər çoxdur. Bunlara aşağıdakıları misal göstərə bilərik:

- əmək haqqı fərqləri, yaş və təhsil alma, evləndikdən sonra başqa yerə köçmə, aclıq, xəstəlik, zorakılıq və digər bədbəxt hadisələr və s.

Əksər hallarda kənddən şəhərə köç əməyin kənd təsərrüfatından sənayeyə doğru yenidən bölüşdürülməsi ilə xarakterizə olunur. Məşhur Amerikalı iqtisadçı Todaroya görə, şəhərlərdə yüksək işsizlik olmasına baxmayaraq, miqrantlar şəhərdə gözlənilən gəliri hesablayıb şəhərə köçməyə qərar verirlər. Bu nəzəriyyəyə görə bəzən şəhərdə kənd mühitinə nisbətən illik real gəlirin bir neçə dəfə artacağı ilə bağlı gözləntilər özünü doğrultmaya bilər. Çünki işlədiyi zaman əmək haqqı nə qədər yüksək olsa da, işləməmə ehtimalı və ya uzun müddət işsiz qalma ehtimalı daha çoxdur. Deməli, onun şəhərdə əldə edəcəyi illik real gəlir kənddəkindən az ola bilər.

Todaronun miqrasiya modeli aşağıdakı xüsusiyyətlərə malikdir:

— köç etməyə şərait yaradan ilk amil rasional iqtisadi qərardır, bu qərar nisbi fayda, xərclərin müqayisəsi və bir sıra psixoloji təsirlər nəticəsində formalaşır;

— miqrasiya qərarı gözlənilən real gəlirlərin fərqindən asılı olur və iki dəyişənin qarşılıqlı əlaqəsi ilə müəyyən edilir;

— şəhər və kənd yerləri arasında faktiki əmək haqqı fərqi və şəhər sektorunda iş tapa bilmək ehtimalı;

— şəhərdə işə düzəlmək ehtimalı şəhərdəki məşğulluq səviyyəsi ilə birbaşa bağlıdır və şəhərdəki işsizlik səviyyəsi ilə tərs mütənasibdir;

— şəhərdə işsizliyin yüksək səviyyəsi əksər inkişaf etməmiş ölkələrdə şəhər və kənd yerləri arasında iqtisadi imkanların ciddi disbalansının qaçılmaz nəticəsidir.

Kənddən şəhərə axın ölkədə fəsadlı siyasi nəticələrə gətirib çıxardır. Şəhərlər üçün əhalinin çox sürətli artımı yolların, kanalizasiya xəttlərinin, məktəblərin və başqa infrastrukturların hədsiz dərəcədə yüklənməsi də daxil olmaqla çoxlu mənfi xarici təsirlər yaradır, planlı olmayan sıx şəhər həyatı bəzi xəstəliklərin yayılmasına şərait yaradır. Belə miqrasiya nisbətən daha ixtisaslı işçilərin sahibkarlıq ənənələrinin və digər amillərin itirilməsi kimi xərclərə səbəb olar, eyni zamanda kənddən şəhərə axın əməkhaqqı, gəlirlər, kəndlərinin inkişafı və sənayeləşmə ilə bağlı inkişaf strategiyalar üçün mühüm siyasi nəticələrə malikdir.

Əvvəla inkişaf strategiyalarında şəhərə olan qərəzli münasibətin məşğulluq imkanları arasında yaratdığı fərqi azaltmağa ehtiyac var. Miqrantların gözlənilən gəlirdəki fərqlərə cavab verməsi gözlənildiyi üçün kənd və şəhər sektorlarında iqtisadi imkanlar arasındakı disbalansı minimuma endirmək çox vacibdir.

İkincisi, şəhərlərdə yeni iş yerlərinin təşkili şəhəri işsizliyini həll etmək baxımından kifayət qədər effektiv bir hər yolu deyil.

Üçüncüsü, ayrı seçkilik etmədən təhsili genişləndirmək daha çox miqrasiyaya və işsizliyə səbəb olacaq. Todaro modeli ali təhsilə dövlət investisiyalarının azaldılması baxımından da mühüm siyasi nəticələrə malikdir.

Dördüncüsü əmək haqqı subsidiyaları və ənənəvi qaydada qıt resurslarla bağlı qiymət siyasəti səmərəsizliyə gətirib çıxara bilər.

Bu axının qarşısını almaq üçün kənd yerlərinin kompleks inkişaf proqramları hazırlanmalıdır. Kənd yerlərinin iqtisadi bazasını genişləndirmək üçün hər cür səy göstərilməlidir. Kənddən şəhərə köç yaradıcı və yaxşı işlənmiş kompleks kənd inkişafı proqramları vasitəsilə minimuma endirilə bilər.

Miqrasiyanı seçən insan, seçdiyi şəhərdə sahib olduğu təhsil və ya bacarıq səviyyəsinə görə mövcud orta gəliri əldə etməyə çalışır. Eyni zamanda miqrantın dərhal iş tapmaq imkanlarının məhdud olduğu və özünün bir müddət işsiz və ya tam işlə təmin olunmama ehtimalından xəbərdar olmasa güman edilir. Çıxan nəticə budur ki, miqrantın gəliri şəhərin qeyri-formal sektorunda natamam məşğulluq və ya işsizlik səviyyəsi ilə deyil, gəlir və işlə təmin olunma etimalı ilə müəyyən edilir.

Fərz edək ki, $V(0)$ miqrantın kənd-şəhər arasında müəyyən bir zaman müddətində gözlənilən "xalis" gəlirinin diskontlaşdırılmış cari dəyəridir, o zaman $Y_n(t)$ və $Y_r(t)$ - müvafiq olaraq, şəhər və kənddə çalışan şəxslərin orta real gəlirləri, $n$ - miqrantın planlaşdırdığı zaman daxilindəki dövrlərinin sayı və $r$ miqrantın zamana nə qədər üstünlük verdiyini göstərən bir dərəcədir.

Onda miqrasiya etmək və ya etməmək qərarı aşağıdakı riyazi ifadənin, müsbət və ya mənfi nəticə almasından asılı olacaqdır.

$$V(0) = \int_{t=0}^{n} [P(t) \cdot (U_u(t) - Y_r(t))]\, e^{-rt} dt - C(0) \qquad (1)$$

Burada $C(0)$ - miqrasiya xərclərini göstərir, $P(t)$ isə miqrantın $t$ dövründə orta gəlirlə şəhərdə işə düzəlməsi ehtimalıdır.

Onda miqrasiyadan sonrakı $x$ dövrü ərzində müasir sektorda işə sahib olma ehtimalı

$$P(x) = \pi(1) + \sum_{t=2}^{x} \pi(t) \cdot \prod_{s=1}^{t-1} [1 - \pi(s)] - \text{ə}$$

bərabər olacaqdır.

$\pi(t)$ $t$ dövrü üçün yeni vakansiyaların bu dövrə qədər cəmi iş axtaranların ümumi sayına nisbətinə bərabərdir.

$\pi$ işə düzələnlərin işə düzəlmə ehtimalıdır.

$$p(1) = \pi(1), \qquad p(r) = \pi(1) + [1 - \pi(1)]\pi\text{-dir.}$$

Bu ehtimal düsturundan belə çıxır ki, hər hansı $Y_n(t)$ və $Y_r(t)$ səviyyəsi üçün miqrant şəhərdə nə qədər çox qalırsa, onun işə sahib olmaq ehtimalı bir o qədər yüksək olar və son nəticədə onun həmin zaman müddətində şəhərdə gözlənilən real gəliri bir o qədər çox olar.

**NƏTİCƏ**

Kənd və rayonlarda əhalinin böyük hissəsinin çətinliklərə görə rayonu tərk etməsi ciddi sosial və iqtisadi problemlərə yol açır.İnsanların dogma yurdlarına qayıtması üçün real dəstək və şərait lazımdır. Bürokratik əngəllərin mövcudlugu isə bu prosesə mane olar. Bizcə bu problemləriaşagıda sadalanan fiziki şəxs və qurumlarla müzakirə etməklə həll etmək olar:

1. Rayon icra hakimiyyərlərinin başçılarına və Dövlət Qurumlarına – konkret hallar və sübutlarla İcra Hakimiyyətlərinə, bələdiyyələrə və müvafiq dövlət qurumlarına rəsmi şəkildə müraciət etmək olar. Problem yalnız idarəçilərin diqqətinə çatdırılmaqla qalmamalı, konkret tədbirlər görülməsi tələb olunmalıdır.

2. Milli Məclis Deputatlarına – rayonlardan seçilmiş deputatlarla görüşmək, onlardan məsələlərin parlament səviyyəsində qaldırılmasını tələb etmək lazımdır. Onların vasitəsilə günü vacib məsələlər ölkə rəhbərliyinə və nazirliklərə yönəldilməlidir.

3. KİV və Sosial Media - rayonların ziyalıları və agsaqqalları mətbuatda , televiza kanallarında , sosial mediada bu məsələləri açıq şəkildə qaldıra bilərlər. Cəmiyyətin dəstəyini qazanmaq üçün yerli və milli media qurumları ilə əlaqə saxlamaq lazımdır.

4. QHT–lər və Xeyriyyə Cəmiyyətləri - onlar dövlət və beynəlxalq xeyriyyə təşkilatlarına müraciət edir, müxtəlf proqramlar vasitəsilə problemlərin həllinə çalışırlar.

5. Prezident Administrasiyası və Nazirlər Kabineti - əgər yerli səviyyədə prolemlər həll olunmursa, birbaşa Prezident Administrasiyasına və müvafiq Nazirliklərə müraciət etmək mümkündür.

Rayon ziyalıları və agsaqqalları bir araya gəlib ,rəsmi və ictimai platformalarda problemləri müzakirə etməli, konkret təkliflər irəli sürməlidirlər.Yerli icra orqanlarının fəaliyyətinə ictimai nəzarət

gücləndirilməli, iş adamlarının, investorların rayonlarda fəaliyyət qurması üçün şərait yaradılmalıdır. Bu problem həqiqətən sistematik xarakter daşıyır və insanların rayona qayıtmasına mane olan mexanizm formalaşdılmalı, bunlar dövlət siyasətinə və yerli idarəçilik sisteminə təsir edəcək səviyyədə müzakirəyə çıxarılmalıdır.


***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Acemoglu, Danon, Johnson, Simon and Robinson James. (2003). "An African success story: Botswana"in Dani Rodrik (ed), İn search of Prosperity: Analytic Nannatives on Economic Growth, Princeton, N. J. Princeton University Press, pp. 80-119.

**2.** David, A. and Martin Petni. (2013). "Inclusive Growth and the Incident of Fiscal Policy in Mauritius Much Progress, But Mone Could Be Done". IMF Working Paper 13116.

**3.** M.P.Todaro. (2023). "İqtisadi inkişaf", Bakı, 990s.



**F.A.Mirzayev**
*Candidate of Technical Sciences, Associate Professor, Baku State University*
*ORCID 0009-0008-4458-9781*
**N.M.Bakhishov**
*Candidate of Economic Sciences, Baku State University*
*ORCID 0000-0001-8794-9187*
**Z.Y.Cavanshirova**
*doctoral student, Baku State University*
*ORCID 0009-0000-3751-2809*


## On the analysis of forecast variants of rural population migration


**Abstract**

*The forecast options for rural population migration have been analyzed, the issue of rural-urban migration, which has been sweeping the world in recent years, has been considered from various aspects, ways out of this situation have been investigated, and proposals have been made to improve the situation. In recent years, due to the significant role played by urban development in economic development in most countries of the world, migration flows from rural areas to cities have been taking on a dramatic character. The intensity of this migration has exceeded the rate of creation of new jobs in urban areas, significantly exceeding the development capacity of both industry and social services in urban areas. Such internal migration directly worsens the imbalance of the structure between rural and urban areas in two directions. The first problem arises from the supply side. Because, internal migration disproportionately increases the number of job seekers in urban areas compared to the growth of the urban population (usually, young people with higher education have a high percentage among migrants). Internal migration leads to an increase in the supply of urban labor and at the same time a decrease in valuable human capital in rural areas. The second problem is the demand side of the issue. Creating jobs in cities is structurally more expensive than in rural areas. This is because the majority of jobs in industry require a very large amount of additional resources, combined with the fact that wages in urban areas are increasing and workers are not necessarily provided with additional production technologies, and output growth in various sectors comes at the expense of increased labor productivity.*



***Keywords****: demography, migration, rural-urban migration, unemployment, national assembly, social media.*



**Ф.А.Мирзаев**
*к.т.н., доцент, Бакинский Государственный Университет*
*ORCİD 0009-0008-4458-9781*

**Н.М.Бахышов**
*к.э.н., Бакинский Государственный Университет*
*ORCİD 0000-0001-8794-9187*
**З.Ю.Джаваншировa**
*докторант, Бакинский Государственный Университет*
*ORCID 0009-0000-3751-2809*

## К анализу вариантов прогноза миграции сельского населения

**Резюме**

*В исследовании проанализированы варианты прогноза миграции сельского населения, рассмотрена проблема сельско-городской миграции, охватившая мир в последние годы, рассмотрены пути выхода из сложившейся ситуации и подготовлены предложения по ее улучшению. В последние годы миграционные потоки из сельской местности в города стали драматическими в большинстве стран мира, поскольку городское развитие играет очень важную роль в экономическом развитии. Интенсивность этой миграции значительно превысила темпы создания новых рабочих мест в городских районах, значительно превзойдя возможности как промышленности, так и развития городских социальных служб. Такая внутренняя миграция напрямую усугубляет структурный дисбаланс между сельскими и городскими районами в двух направлениях. Первая проблема возникает со стороны предложения. Потому что внутренняя миграция непропорционально увеличивает число соискателей работы в городских районах по сравнению с ростом городского населения (обычно среди мигрантов высок процент молодых людей с высшим образованием). Внутренняя миграция приводит к увеличению предложения городской рабочей силы и одновременно к сокращению ценного человеческого капитала в сельской местности. Вторая проблема касается спроса. Создание рабочих мест в городах обходится структурно дороже, чем в сельской местности. Это связано с тем, что большинство промышленных рабочих мест требуют очень большого количества дополнительных ресурсов, а также с проблемой повышения заработной платы в городских районах и отсутствием дополнительных производственных технологий для рабочих, что приводит к росту производства в различных секторах за счет повышения производительности труда.*

***Ключевые слова:*** *демография, миграция, миграция из сельской местности в города, безработица, национальное собрание, социальные сети.*